**Ramil Məhəmmədəli oğlu Əliyev**

**UOT: 338.45; JEL: L23**

# Sənaye müəssisələrində dövriyyə aktivlərinin likvidliyinin qiymətləndirilməsi meyarları

***Xülasə***

*Məqalədə sənaye müəssisələrində dövriyyə aktivlərinin likvidliyinin qiymətləndirilməsi meyarlarının nəzəri-metodoloji məsələləri tədqiq edilmiş, bu sahədə mövcud problemlərin aradan qaldırılması yolları göstərilmişdir. Bazar iqtisadiyyatı şəraitində sənaye müəssisələrinin gələcək fəaliyyətində dövriyyə vəsaitinin rolu göstərilmiş, onların çatışmamazlığının təkrar istehsalın gedişinə təsiri araşdırılmışdır. Müəllif tərəfindən sənaye müəssisələrində istehsal prosesinin dövriyyə vəsaitinə olan ehtiyacının düzgün müəyyən edilib, istehsalın bu vəsaitlərlə lazımı dərəcədə təmin edilməsi xüsusiyyətləri təhlil edilmişdir.*

***Açar sözlər:*** *sənaye müəssisəsi, dövriyyə aktivləri, likvidlik, qiymətləndirmə və meyarlar*

## Giriş

Müasir iqtisadi şəraitdə Azərbaycan Respublikasında fəaliyyət göstərən sənaye müəssisələrinin sabit və normal fəaliyyət göstərməsi üçün zəruri həcmdə maliyyə resurslarına malik olmalıdır. Bu istiqamətdə sənaye müəssisələrinin maliyyə öhdəliklərini yerinə yetirilməsi, cari xərcləri və istehsalat məsrəflərini ödəməsi məqsədilə təsərrüfat subyektinin sərəncamında cəmləşən dövriyyə aktivlərinin, pul gəlirlərinin və kənardan cəlb olunan vəsaitlərin məcmusu maliyya dayanıqlığının təmin olunmasına xidmət edir. Dövriyyə aktivləri (vəsaitləri) bir il ərzində yaxud əməliyyat dövrü ərzində istehsal, tədavül və istehlak sahələrində iştirakı nəzərdə tutulan pul vəsaitləri və digər aktivlərdir. Praktikada dövriyyə aktivləri – istehsal dövriyyə fondları ilə tədavül fondlarının cəmindən ibarətdir. Hər bir sənaye müəssisəsinin məqsədi maksimum mənfəət əldə etməkdir. Bunun üçün sənaye müəssisələri dövriyyə aktivləri əməliyyatlarından istifadə edir. Dövriyyə aktivləri dedikdə - mənfəət əldə etmək üçün sənaye müəssisəsinin öz xüsusi vəsaitlərindən və cəlb olunmuş vəsaitlərdən istifadə etməsi deməkdir.



### Sənaye müəssisələrində dövriyyə aktivlərinin yeri

Azərbaycan Respublikasında sənaye müəssisələrinin dövriyyə aktivlərinin formalaşması mənbələrində böyük dəyişikliklər baş vermişdir. Dövriyyə aktivlərinin tərkibində borc vəsaitlərinin, bank kreditlərinin xüsusi çəkisi xeyli artmışdır. Buradan da belə nəticəyə gəlmək olar ki, sənaye müəssisələrinin kapitalı xüsusi və borc maliyyə vəsaitləri hesabına formalaşır. Sənaye müəssisələrində maliyyələşmənin əsas mənbəyi xüsusi kapitaldır. Sənaye müəssisəsinin əsas fəlaiyyəti də məhz bu vəsaitlər hesabına formalaşır. Müasir şəraitdə sənaye müəssisələrinin dövriyyə aktivləri aşağıdakı sxem şəklindədir.

İstehsal prosesindən başlamış hazır məhsulun anbarlara yetirilməsi dövriyyə vəsaitlərinin əsas elementləridir. Sənaye müəssisəsinin dövriyyə fondlarının tərkibinə aşağıdakılar aiddir:


- İstehsal ehtiyyatları - xammal, köməkçi materiallar, yarımfabrikatlar, yanacaq, tara, avadanlıqların təmir olunması üçün ehtiyat hissələri və digər inventarlar;
- Yarımçıq istehsalat (istehsal sahəsinin müəyyən mərhələlərində əmək alətləri);
- Şəxsi istehsalı olan yarımfabrikatlar (növbəti mərhələ üçün tam emal olunmuş əmək vəsaitləri);
- Gələcək dövrlərin xərcləri (yeni məhsul istehsalı üçün nəzərdə tutulmuş xərclər).

© *Ramil Məhəmmədəli oğlu Əliyev AMEA İqtisadiyyat İnstitutu, aparıcı elmi işçi, i.f.d.*
© *AMEA İqtisadiyyat İnstitutu*
© *www.economics.com.az*

Dövriyyə fondlarını iki qrupa bölmək olar: dövriyyə fondlarının müxtəlif elementləri və ümumi dövriyyə fondu. Bu qruplar aşağıdakı halllarda formalaşır:

- Sənaye müəssisəsinin istehsal xarakterindən;
- İstehsal tipindən;
- Texnoloji mərhələnin müddətindən;
- İstehsal müddətində yanacağın vaxtında çatdırılmasından.

**Sənaye müəssisələrinin dövriyyə aktivləri**






**Sənaye müəssisələrində dövriyyə aktivlərinin müasir vəziyyəti**

Dövriyyə aktivləri kimi sənaye müəssisəsində hazır məhsulun əldə olunması üçün çəlb olunmuş materiallar, eyni zamanda nəğd və yaxud köçürmə formasında pul vəsaitlərinin məcmusu başa düşülür. Dövriyyə fondu istehsal olunan məhsulun dövriyyəsi ilə bir başa əlaqəlidir. Dövriyyə vəsaitləri məhsulun qiymətinin birbaşa daşıyıcılarıdır. Belə ki, dövriyyə vəsaitləri öz dəyərini istehsal olunmuş məhsulun üzərinə keçirir, bu da daimi olaraq istehsalın bərpa olunmasına kömək edir. Qeyd edilənlər əsasında dövriyyə vəsaitlərini üç mərhələyə ayırmaq məqsədə uyğundur: pul forması, İstehsal və məhsul. Bazar iqtisadiyyatı şəraitində rəqabətqabiliyyətli iqtisadi mühitdə hər bir sənaye müəssisəsi öz dövriyyə vəsaitlərinin likvidliyinə diqqətlə yanaşmalıdır. Bu səbəbdən sənaye müəssisələri hazır məhsulun optimal idarə edilməsinə diqqətlə yanaşmalı və aşağıdakı faktorlar nəzərə alınmalıdır:

- Hazır məhsul istehsal mərhələsinə uyğun həyata keçirilməsi;
- Məhsula olan tələbatın düzgün qiymətləndirilməsi;
- Mövsümü faktorlar;
- Satılmayan məhsulların düzgün bazarlanması ilə bağlı işlərin həyata keçirilməsi.

Bazar iqtisadiyyatı şəraitində sənaye müəssisələrində inventarlara investisiya qoyuluşları zamanı əsasən iki risk amili nəzərdə olmalıdır: qiymətlərin dəyişilməsi və mənəvi və fiziki aşınma. Bazar iqtisadiyyatı şəraitində sənaye müəssisələrinin gələcək fəaliyyəti onların dövriyyə vəsaiti ilə nə dərəcədə təmin edilməsindən xeyli asılıdır. Dövriyyə vəsaitinin çatışmamazlığı təkrar istehsalın gedişinə mane olur, müəssisədə maliyyə çətinliyi baş verir.

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

Dövriyyə vəsaitinin artıqlığı isə onun dövriyyə sürətinin azalmasına, vəsaitin dövriyyədən ya yınmasına və rentabelliyin aşağı düşməsinə səbəb olur. Ona görə də istehsal prosesinin dövriyyə vəsaitinə olan ehtiyacının düzgün müəyyən edilib, istehsalın bu vəsaitlərlə lazımı dərəcədə təmin edilməsi xüsusi əhəmiyyət kəsb edir.

Təbii ki, müasir iqtisadi şəraitdə sənaye müəssisələri özünə məxsus dövriyyə fondlarından istifadədə tam sərbəstdir. Hər bir sənaye müəssisəsi dövriyyə fondlarından qənaətlə və səmərəli istifadə etməlidir ki, yüksək iqtisadi nəticələrə nail olsun. Sənaye müəssisələrinin gələcək fəaliyyəti onların dövriyyə vəsaiti ilə nə dərəcədə təmin edilməsindən xeyli asılıdır. Dövriyyə vəsaitinin çatışmamazlığı təkrar istehsalın gedişinə mane olur, müəssisədə maliyyə çətinliyi baş verir. Dövriyyə vəsaitinin artıqlığı isə onun dövriyyə sürətinin azalmasına, vəsaitin dövriyyədən yayınmasına və rentabelliyin aşağı düşməsinə səbəb olur. Ona görə də istehsal prosesinin dövriyyə vəsaitinə olan ehtiyacının düzgün müəyyən edilib, istehsalın bu vəsaitlərlə lazımı dərəcədə təmin edilməsi xüsusi əhəmiyyət kəsb edir. Sənaye müəssisələrinin dövriyyə aktivlərinin likvidliyi dövriyyə vəsaitlərinin zərərsiz olaraq tez müddətdə pul vəsaitlərinə çevrilməsinə xidmət edir. Bu nöqteyi nəzərdən sənaye müəssisələrində dövriyyə vəsaitləri likvidlik baxımından aşağıdakı bölmələrə ayırmaq olar:

- Tam likvidli aktivlər (pul vəsaitləri və qısamüddətli maliyyə qoyuluşları);
- Tez realizə olunan aktivlər (qısamüddətli debitor borclar);
- Gec realizə olunan aktivlər (ehtiyatlar;
- Xərclər;
- Uzunmüddətli debitor borcları



Dövriyyə fondlarının likvidliyi əsas kapitala yönəldilmiş investisiyaların risk dərəcələrini müəyyən edən başlıca faktorlardandır. Müasir iqtisadi şəraitdə sənaye müəssisələrinin dövriyyə vəsaitlərinə qoyulan investisiyaların likvidlik əmsalları maliyyə menecerləri tərəfindən düzgün təhlil olunmalıdır. Belə ki, bu zaman dövriyyə vəsaitlərinin qruplar üzrə müqayisə olunması daha məqsədəuyğundur. Xüsusilə qeyd edək ki, qısamüddətli borclar prioritet məsələ kimi hər zaman sənaye müəssisəsinin prioritet məsələlərindən olmalıdır. Likvidlik əmsalları əsasında müvafiq mərhələlərdə sənaye müəssisəsinin dövriyyə vəsaitləri hesabına kreditor borclarının ödənilməsi həyata keçirilməsinə xidmət edir.

Sənaye müəssisələrinin fəaliyyət növlərindən asılı olaraq likvidlik əmsalları təyin olunur. Dövriyyə vəsaitlərinin likvidlik əmsallarının normativlər əsasında müqayisəli hesablanması sənaye müəssisəsinin maliyyə vəziyyətinin göstəricisidir.

Sənaye müəssisələrində likvidlik əmsallarını aşağıdakı formadada ayırrmaq olar:

- Cari likvidlik əmsalı (Lc) - sənaye müəssisəsinin dövriyyə vəsaitlərinin qısamüddətli öhdəliklərinin səviyyəsini əks etdirir. Bu əmsalı müəyyən etmək üçün balansın aktivinin ikinçi bölməsinin yekunu qısamüddətli passivlərə bölünür.

$$Lc = \frac{dövriyyə\ vəsaitləri}{qısamüddətli\ öhdəliklər}$$

Sənaye müəssisləri üçün qəbul olunmuş normativ 1.7-dir.

- Aralıq likvidlik əmsalı (La) - sənaye müəssisəsinin qısamüddətli borclarının ödənilə biləcəyi nəzərdə tutulur (pul vəsaitləri, qısamüddətli maliyyə qoyuluşları və debitor borclar). Bu əmsalı müəyyən etmək üçün pul vəsaitləti və onların ekvivalentlərinin üzərinə debitorla hesablaşmalar gəlinib qısamüddətli passivlərə bölünür.

$$La = \frac{dövriyyə\ vəsaitləri - ehtiyatlar}{qısamüddətli\ öhdəliklər}$$

Sənaye müəssisləri üçün qəbul olunmuş normativ 0.5-0.8-dir.

- Tam likvidlik əmsalı (Lt) - pul vəsaitləri və qısamüddətli maliyyə qoyuluşlarının qısamüddətli öhdəliklərə nisbəti kimi hesablanır. Bu əmsal balansın tərtibi zamanına

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

borcun hansı hissəsinin pul vəsaitləri və qısamüddətli maliyyə qoyuluşları hesabına ödənilə bilməsini göstərir.

$$Lt = \frac{\textbf{cəlb olunmuş qısamüddətli maliyyə qoyuluşları+şəxsi pul vəsaitləri}}{\textbf{qısamüddətli öhdəliklər}}$$

Sənaye müəssisləri üçün qəbul olunmuş normativ 0.1-dir.

Qeyd olunan əmsallar bir-birindən fərqlənirlər və bunun əsas səbəbi hər bir əmsalda dövriyyə vəsaitlərinin qiymətləndirilməsindən asılıdır. Bu əmsalların hər biri dövriyyə vəsaitlərinin bu və ya digər qrup elementlərinin eyni bir kəmiyyətə - müəyyən zaman anına (hesabat dövrünün əvvəlinə və sonuna) balansın passivinin sənaye müəssisəsinin qısamüddətli öhdəliklərini ifadə edən maddələrinin məbləğinə olan nisbətini əks etdirir. Bu əmsallar vasitəsilə sənaye müəssisəsinin dövriyyə vəsaitlərinin elementləri hesabına borclarının hansı hissəsini ödəmək imkanında olduğunu və dövriyyə vəsaitlərinin ümumi kəmiyyətinin borclardan nə dərəcədə artıq olduğunu göstərir. Praktik olaraq məsələyə aşağıdakı kimi baxmaq olar. Məlum məsələdir ki, bəzən iqtisadi qanunauyğunluğa əsasən müəyyən makroiqtisadi problemlərlə rastlaşmaq olur. Buna misal olaraq devalvasiyanı göstərmək olar. Deyək ki, bu zaman kreditorlar eyni zamanda borclarının ödənilməsini tələb edərlərsə, sənaye müəssisəsi bu tələbləri nə dərəcədə yerinə yetirəcəyi maraq doğurur. Təbii ki, bu yanaşma sənaye müəssisəsinin qısa müddətli borcları üçün nəzərdə tutulub. Çünki, devalvasiya tipli iqtisadi proseslər uzunmüddətli borcların ödənilməsinə təsir etmir, əksinə müəyyən mənada sənaye müəssisələrinin xeyrinə hesab olunur.

**Sənaye müəssisələrinin dövriyyə aktivlərinin likvidliyinin qiymətləndirilməsi meyarları**

İnkişaf etmiş ölkələrin təcrübəsini nəzərə alaraq, müasir şəraitdə ölkəmizdə fəaliyyət göstərən sənaye müəssisələrinin dövriyyə aktivlərinin likvidliyinin qiymətləndirilməsi meyarlarını belə şəkildə göstərə bilərik: Cari dövriyyə vəsaitlərinin kreditor borclarının minimumlaşdırılması. Bu yanaşma likvidliyin maxsimum həddə həyata keçirilməsinə xidmət edir. Burada xüsusi vəsaitlərlə cəlb olunmuş uzunmüddətli vəsaitlər arasında müqayisəli təhlilə geniş yer verilməlidir.

Dövriyyə fondlarında məcmuə xərclərinin minimumlaşdırılması. Burada əsasən dövriyyə vəsaitlərinin formalaşmasında qısamüddətli kredit borclarından istifadəyə üstünlük verilir. Sadalanan bu meyarların əsas məqsədi sənaye müəssisələrinin dövriyyə vəsaitlərinin iqtisadi dəyərini yüksəltməkdir. Bazar iqtisadiyyatı şəraitində sənaye müəssisələridə dövriyyə aktivlərinin formalaşması mənbələri xüsusi, borc və digər əlavə olunmuş vəsaitlər hesabına həyata keçirilir. Bunu aşağıdakı cədvəl əks etdirir.

**Sənaye müəssisələrində likvidlik dərəcəsi üzrə dövriyyə aktivləri**

| Dövriyyə aktivləri qrupu | Sənaye müəssisəsinin balansının aktivinə daxil olan maddələrin tərkibi |
|---|---|
| Ən likvidli aktivlər | Pul vəsaitləri: kassa, hesablaşma hesabı, valyuta hesabı, sair pul vəsaitləri.<br>Qısamüddətli maliyyə qoyuluşları. |
| Tez reallaşdırılan aktivlər | Göndərilən əmtəələr.<br>Qısamüddətli debitor borclar.<br>Sair dövriyyə aktivləri. |
| Yavaş reallaşdırılan aktivlər | Gələcək dövrlərin xərcləri çıxıldıqdan sonra qalan ehtiyatlar. |
| Dövriyyə fondunun ümumi məbləği | 1+2+3 |



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

**Nəticə**

Azərbaycan Respublikasında fəaliyyət göstərən sənaye müəssisələrinin işinin normallaşdırılmasında dövriyyə aktivlərinin səmərəli istifadəsinin təmin edilməsi, istehsalın rentabellik səviyyəsinin yüksəldiməsində böyük rol oynayır və bir çox amillərdən asılıdır. Dövriyyə aktivlərinin səmərəli istifadə edilməsinə müəyyən iqtisadi proseslər mane olurlar. Bunlara aiddir: istehsalın həcmi və istehlak tələbinin azalması, inflyasiyanın yüksək tempi, təsərrüfat əlaqələrinin pozulması, müqavilə və ödəmə-hesablaşma intizamının pozulması, vergi ağırlığının yüksək səviyyəsi, yüksək bank faizləri nəticəsində kreditə girişin azalması.

**Ədəbiyyat**

1. "Azərbaycanda maliyyə nəzarəti və audit" elmi-praktik konfransın materialları . Bakı, Azrnəşr, 1999.
2. Aslanlı K., Rzayev A. və b. Hesablama Palataları ilə bağlı beynəlxalq təcrübə və normalar.www.freeeconomy.az
3. Audit: Ali məktəblər üçün dərs vəsaiti. Bakı, "Azərbaycan Milli Ensiklopediyası", 2001.
4. "Auditor xidməti haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı, 1994.
5. Azərbaycan Respublikasının Auditor Palatası haqqında Əsasnamə. Bakı, 1995.
6. http://edu.dvgrups.ru/
7. http://www.auditfin.com/fin/2004/1/fin



***Рамиль Магомедалиевич Алиев***

***Критерии оценки ликвидности оборотных средств на промышленных предприятиях***

***Резюме***

*В статье рассматриваются теоретические и методологические вопросы критериев оценки ликвидности оборотных средств на промышленных предприятиях и способы решения существующих проблем в этой области. Была исследована и продемонстрирована роль оборотных средств в будущей предпринимательской деятельности, и влияние их на дефицит в повторном производстве в рыночной экономике. Автор правильно определил необходимость регресса в промышленности на промышленных предприятиях и проанализировал характеристики предложения с необходимыми ресурсами.*

***Ключевые слова**: промышленные предприятия, оборотные активы, ликвидность, оценки и критерии*

*© AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*

***Ramil Mahammadali Aliyev***

***Criteria's for evaluating the liquidity of circulating assets in industrial enterprises***

***Summary***

*The article examines the theoretical and methodological issues of criteria for assessing the liquidity of circulating assets in industrial enterprises, and ways to address existing problems in this area. The role of circulating assets in future business activities has been demonstrated, and the impact of their deficit on re-emergence has been investigated in the marker economy. The author correctly identified the need for recourse in the industry in industrial enterprises, and analyzed the characteristics of the supply with the necessary resources.*

***Key words****: industrial enterprises, turnover assets, liquidity, valuations and criteria*

**Bu iş Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun maliyyə yardımı ilə yerinə yetirilmişdir (Qrant № EİF-KETPL-2-2015-1(25)-56/56/5)**

***Elmi redaktor: i.f.d., dos. Y.Məmmədov***
***Daxil olub: 17.07. 2017.***
***Çapa qəbul olunub:20.07.2017.***



© *AMEA İqtisadiyyat İnstitutu*
© *www.economics.com.az*